# Azərbaycan Prokurorluğu tarixin inkişaf mərhələlərində

**Hər il oktyabrın 1-də prokurorluq əməkdaşları və eləcə də respublikanın hüquq-mühafizə ictimaiyyəti prokurorluq işçilərinin peşə bayramını təntənəli şəkildə qeyd edir. Bu il isə bu bayramın mahiyyəti daha da önəmlidir. Çünki müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycanın Cümhuriyyətinin hüquq-mühafizə sistemində düz 100 il bundan öncə prokurorluq orqanları yaradılmışdır. Məhz həmin vaxt, yəni Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanlarının fəaliyyətə başlaması müstəqil bir dövlət təsisatı olan Azərbaycan Prokurorluğunun yaranması və fəaliyyətə başlaması kimi tarixə düşmüşdür. Bu günün təntənəli şəkildə qeyd olunmasında isə prokurorluq əməkdaşları ulu öndər Heydər Əliyevə borcludur. Məhz xalqımızın ümummilli liderinin 17 iyul 1998-ci il tarixli sərəncamı ilə yuxarıda qeyd edilən tarix əbədiləşdirilmiş və hər il oktyabr ayının 1-ni Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi qərara alınmışdır.**

Azərbaycan prokurorluq orqanları bir əsrə bərabər dövrdə çox çətin, lakin şərəfli bir tarixi yol keçmişlər. Həmin illər ərzində prokurorluq həm böyük məhrumiyyətlər və problemlərlə üzləşmiş, eləcə də zamanın və dövrün tələbinə uyğun olaraq böyük islahatlar və yenilik dövrünə qədəm qoymuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq qısa, lakin tarixi əhəmiyyəti baxımından çox müstəsna bir dövrü ərzində, Azərbaycanın digər hüquq-mühafizə orqanları ilə yanaşı, prokurorluq orqanları da xarici qüvvələrin işğalı nəticəsində öz müstəqil inkişaf mərhələsindən məhrum olmuşdur.

Sovet hakimiyyəti illərində Azərbaycan formal olaraq Respublika statusunda olsa da, lakin heç bir müstəqillikdən söhbət gedə bilməzdi. O dövrlər imperiya əsarətində olan Azərbaycanda bütün dövlət qurumları, o cümlədən prokurorluq orqanları da öz fəaliyyətlərini sovet sosialist ideologiyası əsasında qurmağa məcbur edilmişdir. Lakin buna baxmayaraq, hətta ən ağır repressiya illərində belə Azərbaycanın prokurorluq orqanları əməkdaşlarının böyük əksəriyyəti vəzifə borclarını namusla yerinə yetirərək öz xalqına vicdanla xidmət etmişlər.

Azərbaycanın Sovet Hakimiyyəti illərində ən parlaq, zəngin və inkişaf dövrü isə xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Məhz ulu öndərin Azərbaycana ilk rəhbərlik etdiyi dövr respublika tarixinə siyasi, iqtisadi və mədəni yüksəliş və intibah dövrü kimi daxil olmaqla, xalqın milli mənlik şüurunun oyanışına, özünüdərk hislərinin gücləndirilməsinə böyük stimul vermişdir. 14 iyul 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə seçilən Heydər Əliyev özünün yüksək iş qabiliyyəti və dövlət idarəçilik keyfiyyətləri sayəsində o dövrdə hökm sürən sovet sosialist ideologiyasının bütün sədlərini aşmaqla, mövcud olan total qadağalara və süni maneələrə baxmayaraq, Azərbaycanın milli inkişaf konsepsiyasını önə çəkmiş, insanları bütün sahələr üzrə böyük yüksəlişlərə ruhlandırmağı bacarmışdır. Heydər Əliyev kimi dahi bir şəxsiyyətin 13 il ərzində respublikaya rəhbərlik etdiyi dövrdə Azərbaycan Sovet İttifaqının tərkibində olan digər müttəfiq respublikaların sırasında ən sürətlə inkişaf edən ölkə olmuş, bu illərdə Azərbaycanda yüzlərlə yeni sənaye kompleksləri, məişət, mədəniyyət və təhsil obyektləri inşa edilmiş, avtomobil və dəmir yolları çəkilmiş, sosial infrastruktur yaradılmış, kənd təsərrüfatının inkişafına xüsusi önəm və diqqət yetirilmişdir. Məhz həmin dövrdə yaradılmış iqtisadi potensial gələcəkdə Azərbaycanın müstəqil dövlət kimi formalaşmasında və fəaliyyət göstərməsində mühüm rol oynamışdır. Heydər Əliyevin rəhbərliyi altında respublikamızın iqtisadi qüdrətinin artırılması ilə yanaşı, cəmiyyətdə mövcud olan neqativ və xoşagəlməz hallarla kəskin mübarizə, bütün növ cinayət təzahürlərinə, o cümlədən rüşvətxorluğa qarşı barışmaz mövqe ön plana çəkilməklə, hüquq-mühafizə, həmçinin prokurorluq orqanları sıralarından natəmiz, öz işinə vicdansız və laqeyd yanaşan insanlardan təmizlənmə proseslərinə də start verilmişdir. Həmin dövrdə Heydər Əliyev zəngin dünyagörüşü və uzaqgörənliyi ilə bu günün real mənzərəsini qiymətləndirməklə mükəmməl şəkildə düşünülmüş və gələcəyə hesablanmış siyasət həyata keçirirdi. Məhz 1970-1980-ci illərdə respublikanın iqtisadi-mədəni və ictimai-sosial həyatında sürətli inkişaf illəri olmaqla, müstəqil Azərbaycanın təməli qoyulmuş və bütün sahələrdə böyük bir dönüş başlanmışdır.

1991-ci ildə Azərbaycan öz müstəqilliyini yenidən bərpa etdikdən sonra respublikamız yeni dövrə qədəm qoymuşdur. Lakin müstəqilliyimizin ilk illərində AXC-Müsavat hakimiyyəti dövründə ölkəni bürümüş daxili didişmələr, anarxiya və xaos dövlət quruculuğuna böyük zərbə vurmuşdur. 1992-1993-cü ilin may-iyun aylarında respublikaya rəhbərlik edən həmin şəxslərin səriştəsizliyi nəticəsində isə hakimiyyət böhranı və hərc-mərclik son həddə çatmış, ölkə vətəndaş müharibəsi, müstəqilliyinin itirilməsi təhlükəsi qarşısında qalmışdı. Məhz bu ağır günlərdə Azərbaycan xalqının yeganə ümid yeri Heydər Əliyev idi. Ona görə də xalq bu dahi şəxsiyyətin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Xalqın təkidli və israrlı tələbləri ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdan və 15 iyun 1993-cü ildə Azərbaycan Respublikası Ali Sovetinin sədri vəzifəsinə, sonradan isə yekdil səsvermə nəticəsində Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilən Heydər Əliyev çox qısa bir vaxtda Azərbaycanın real parçalanma və bir dövlət kimi dünya xəritəsindən silinmə təhlükəsinin qarşısını aldı. Lakin keçmiş rəhbərlik özündən sonra çox ağır bir miras qoymuşdu. Bu, tamamilə dağıdılmış iqtisadiyyat, siyasi böhran və sosial gərginlik idi. Məhz ümummilli lider Heydər Əliyevin uzaqgörən daxili və xarici siyasəti nəticəsində Azərbaycanda vəziyyət tədricən stabilləşməyə başladı. Cinayətkar silahlı qruplaşmalar məhv edildi, respublikamız iqtisadi tənəzzüldən çıxaraq sürətlə inkişaf etməyə başladı, sosial problemlərin bir çoxu həll edildi, Azərbaycan dünya miqyasında özünə layiqli yer tutdu. 20 sentyabr 1994-cü ildə dövlətimizin neft strategiyası müəyyənləşdirilərək, dünyanın inkişaf etmiş səkkiz ölkəsini təmsil edən 11 xarici neft şirkəti ilə Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dərinlikdə yerləşən hissəsinin kəşfiyyatı, işlənməsi və hasilatının pay bölgüsünə dair "Əsrin müqaviləsi" adı ilə tarixə düşən nəhəng saziş imzalandı. Məhz bu sazişin imzalanması və həyata keçirilməsi ilə ulu öndər bir tərəfdən Azərbaycanın iqtisadi maraqlarını təmin edə bildi, digər tərəfdən isə respublikamızın siyasi səhnədə önəmli çəkisini artırmaqla regionda əsas söz sahiblərindən biri olmasını təmin etdi.

Ulu öndər ikinci dəfə hakimiyyətdə olduğu müddətdə Azərbaycanda hüquqi dövlətin formalaşması və bu əsasda onun mühüm beynəlxalq qurumlarda layiqincə təmsil olunması üçün əvəzsiz xidmətlər göstərmişdir. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında yeni Konstitusiya layihəsi hazırlanmış və 12 noyabr 1995-ci ildə referendum yolu ilə qəbul edilmişdir. Konstitusiyada əks olunan müddəalar ölkəmizin gələcək inkişafının mühüm istiqamətlərini müəyyənləşdirmiş, Azərbaycanın demokratik, hüquqi və dünyəvi dövlət olmasını bəyan etmiş, insan hüquq və azadlıqlarının prioritetliyini ön plana çəkməklə ölkənin gələcək inkişaf modeli üçün hüquqi baza yaratmışdır. Heydər Əliyevin 21 fevral 1996-cı il tarixli sərəncamı ilə Hüquq İslahat Komissiyası yaradılmışdır ki, həmin komissiya tərəfindən respublikada bir çox sahələri əhatə edən onlarca yeni qanun və məcəllə layihələri hazırlanaraq Azərbaycan Respublikası Milli Məclisi tərəfindən qəbul edilmişdir.

Ümummilli liderin hüquqi dövlət quruculuğu sahəsində ən önəmli addımlarından biri də qanunun aliliyinin keşiyində dayanan hüquq mühafizə orqanlarının işinin təkmilləşdirilməsi sahəsində qəbul etdiyi qərarlar, verdiyi göstəriş və tövsiyələrdir. Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi altında prokurorluq orqanlarında aparılan mühüm islahatların əhəmiyyəti bu baxımdan xüsusi qeyd olunmalıdır. Müstəqil Azərbaycanımızın prokurorluq orqanlarının son illər ərzində qanunun aliliyinin təmin olunmasında, vətəndaşların əsas hüquq və azadlıqlarının müdafiəsinə xidmət etməklə dövlətçilik maraqlarından çıxış edən demokratik qurum kimi formalaşmasında, onun fəaliyyətinin təminatı üçün qanunvericilik və maddi-sosial bazasının yaradılmasında ulu öndərin xidmətləri əvəzolunmazdır. Məhz həmin illərdə prokurorluğun fəaliyyətinin hüquqi əsasını təşkil edən normativ aktlar, o cümlədən "Prokurorluq haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Prokurorluğun rəsmi emblemi haqqında", "Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında" qanunlar dövlət başçısının təşəbbüsü ilə qəbul olunmuş və "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi qaydaları haqqında" Əsasnamə onun sərəncamı ilə təsdiq edilmişdir. "Azərbaycan Respublikası prokurorluq orqanları işçilərinin maddi və sosial təminatı haqqında" 2002-ci il 8 oktyabr tarixli sərəncam ulu öndər Heydər Əliyevin prokurorluğa və prokurorluq işçilərinə göstərdiyi daimi qayğının parlaq bir təzahürüdür. Ümummilli liderimizin: "Azərbaycan Respublikasının Prezidenti kimi mən prokurorluğa inanıram, güvənirəm və arxalanıram" ifadəsini isə bütün prokurorluq əməkdaşlarının əməyinə verilən ən yüksək qiymət kimi dəyərləndirmək olar.

Prokurorluğun demokratik məzmunlu, sivil və mütərəqqi bir dövlət təsisatı kimi formalaşıb inkişaf etməsində Heydər Əliyevin prokurorluq orqanlarının rəhbər işçiləri ilə 26 aprel 2000-ci ildə keçirdiyi tarixi görüşünün mühüm əhəmiyyəti olmuşdur. "Mən prokurorluqda işləyən insanların əksəriyyətini sədaqətli və peşəkar işçi hesab edirəm. Təbiidir ki, belə adamlara etimad göstərmək, etibar etmək lazımdır...". Bu sözlər ümummilli lider Heydər Əliyevin bu görüş zamanı söylədiyi proqram xarakterli nitqindən götürülmüşdür.

Həmin tarixi görüşdən sonra prokurorluqda köklü islahatlar və struktur dəyişiklikləri aparılaraq ümummilli liderin vermiş olduğu tövsiyə və tapşırıqlar əsasında Azərbaycan Prokurorluğunun normal fəaliyyəti üçün mütərəqqi normativ hüquqi baza yaradılmış və bununla da prokurorluq artıq demokratik məzmunlu fəaliyyət prinsipləri və iş metodları olan sivil, çevik və işlək dövlət təsisatına çevrilmişdir. Bununla yanaşı, prokurorluq orqanlarının sıralarının saflaşdırılaraq mövcud çatışmazlıqların aradan qaldırılması, ancaq test üsulu ilə prokurorluğa qulluğa qəbulu həyata keçirməklə gənc, perspektivli, zamanın tələbi ilə uzlaşan, yeni düşüncə tərzinə malik və müasir tələblər səviyyəsində işləməyə qadir olan kadr korpusunun formalaşdırılması və dövlətçilik maraqlarına daim xidmət edən təkmil nəzarət mexanizminin yaradılması istiqamətində böyük nailiyyətlər əldə olunmuşdur.

Bu siyasətin uğurlu davamı olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın müstəsna əhəmiyyəti vardır. Məhz həmin Dövlət Proqramının müddəalarına və müəyyənləşdirdiyi istiqamətlərə əsasən prokurorluq orqanlarının fəaliyyəti daha da təkmilləşdirilməklə müasirləşdirilmiş, maddi-texniki bazası möhkəmləndirilmiş, əməkdaşların sosial müdafiəsi daha da gücləndirilmiş və fəaliyyətində yeni elmi-texniki nailiyyətlərdən geniş istifadə olunması üçün münbit şərait yaradılmışdır. Məhz möhtərəm Prezidentimizin verdiyi müvafiq tapşırıqlara əsasən bu gün prokurorluq orqanlarında yeni informasiya texnologiyalarının geniş tətbiqi istiqamətində bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilməklə müasir dövrdə ayaqlaşmaq iqtidarında olan önəmli bir fəaliyyət istiqaməti müəyyənləşdirilmişdir. Bütün bu göstərilənlər ona imkan vermişdir ki, prokurorluq digər hüquq-mühafizə orqanları ilə birlikdə son illər ərzində ölkəmizdə ictimai-siyasi sabitliyin təmin olunması, vətəndaşların hüquq və azadlıqlarının etibarlı şəkildə qorunması, cinayətkarlıq və hüquq pozuntularına qarşı qətiyyətli mübarizə sahəsində mühüm tədbirlər həyata keçirmiş və bu istiqamətdə zəruri və genişmiqyaslı fəaliyyətini davam etdirir.

Qürur hissi ilə vurğulamaq lazımdır ki, ölkə rəhbərliyinin prokurorluq orqanlarına qayğısı və diqqəti davam etməkdədir. Belə ki, möhtərəm Prezidentimiz İlham Əliyev "Azərbaycan Prokurorluğunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamənin təsdiq edilməsi haqqında **28 iyun 2018-ci il** tarixdə sərəncam imzalamışdır. Həmin Qanun və icrası ilə bağlı sərəncamda göstərilmişdir ki, "Azərbaycan Prokurorluğunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı ilə prokurorluq orqanlarında vəzifələrini nümunəvi yerinə yetirən, xidmətdə yüksək nəticələr əldə edən, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində peşəkarlığı ilə fərqlənən, uzun müddət qüsursuz xidmət edən prokurorluq orqanlarının əməkdaşları və veteranları, prokurorluq orqanlarının inkişafında xüsusi xidmətləri olan digər şəxslər, habelə beynəlxalq tərəfdaşlar təltif edilirlər".

Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi hüquqi dövlət quruculuğu və strateji inkişaf konsepsiyasına uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən inamla həyata keçirilən ardıcıl və sistemli islahatlar, idarəetmə mexanizminin mütəmadi olaraq təkmilləşdirilməsi ilə müşayiət olunan müdrik və səmərəli dövlət idarəçiliyi, təhlükəsizliyin və sabitliyin gücləndirilməsi ilə bağlı vaxtında görülən tədbirlər ölkənin müstəqilliyinin daha da möhkəmləndirilməsinə, onun davamlı və dayanıqlı inkişafının təmin olunmasına, dövlətimizin qüdrətinin artmasına, xalqımızın əmin-amanlığının və rifah halının, vətəndaş həmrəyliyinin yüksəlməsinə zəmin yaratmışdır. Bu baxımdan, demokratik cəmiyyətdə xüsusi rolu olan və mühüm dövlət təsisatı funksiyasını daşıyan prokurorluq orqanlarının da üzərinə mühüm vəzifələr düşür.

Azərbaycan Respublikası Prokurorluğunun hər bir əməkdaşı bu mühüm dövlət təsisatına ən ali dövlət səviyyəsində göstərilən etimadın məsuliyyətini dərindən dərk edir və işlərini müasir tələblər səviyyəsində qurmaq, prokurorluqda formalaşmış sağlam iş mühitini daha da möhkəmləndirmək, cəmiyyətdə prokurorluğa artan ictimai etimadı və inamı qoruyub saxlamaq üçün bütün qüvvələrini səfərbərliyə almaqla öz fəaliyyətlərini davam etdirirlər.

Bu günlərdə 100 illik yubileylərini ruh yüksəkliyi ilə qeyd edəcək prokurorluq orqanlarının bütün əməkdaşları bundan sonra da ölkəmizdə mütərəqqi islahatların reallaşdırılması istiqamətində öz xidmətlərini əsirgəməyəcək, digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin, dövlətçiliyimizin maraqlarının cinayətkar qəsdlərdən qorunması, cinayətkarlığa qarşı kəskin, barışmaz mübarizə və vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi işində daha da fəal olacaqlar.

**Həsən HƏNİFƏYEV,**
**Şirvan şəhər prokuroru vəzifəsini icra edən, baş ədliyyə müşaviri.**

Respublika.- 2018.- 27 sentyabr.- S.7.